# Muzeydə "Müəllim günü"

Tanınmış yazıçı və pedaqoq Abdulla Şaiq deyirdi: "Mən yazıçılığımdan ziyadə müəllimliyimlə fəxr edirəm". Yazıçının ev muzeyində "Müəllim günü"nün qeyd olunmasının ənənə halını alması bu ocağın əməkdaşlarının onun yuxarıdakı fikrinə sədaqətidir. Növbəti "Müəllim günü" münasibətilə tədbiri muzeyin baş elmi işçisi, sənətşünaslıq namizədi Minaxanım Əsədova açaraq Abdulla Şaiqin pedaqoji fəaliyyəti haqqında məlumat verdi.

Tədbirdə Mədəniyyət Nazirliyinin Metodiki Mərkəzinin direktor müavini Səidə Eyvazova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Gülövşə Məmmədova və b. çıxış etdilər.

Muzeyin direktoru, akademik Kamal Talıbzadə "Müəllim günü" münasibətilə hamını ürəkdən təbrik edərək ən səmimi arzularını bildirdi. A.Şaiqin pedaqoji fəaliyyətindən danışaraq qeyd etdi ki, o, 1907-ci ildən başlayaraq bir-birinin ardınca müxtəlif dərsliklər nəşr etmişdir. Bu dərsliklərdə uşaqlara dərin bilik verməsi ilə yanaşı, onlarda milli mənlik şüuru, böyüklərə hörmət, təbiətə qayğı kimi keyfiyyətlər aşılamışdır.

Sonda tədbir iştirakçıları muzeyin ekspozisiya otaqlarına baxdılar.

**A.Hacızadə**